# *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT 37.

**_Şəhriyar Məzahir oğlu Məcidov_**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*

## MÜƏLLİMİN TƏDRİS FƏALİYYƏTİ PEDAQOJİ QİYMƏTLƏNDİRMƏNİN OBYEKTİ KİMİ

**_Шахрияр Мазахир оглы Маджидов_**
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

## ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ УЧИТЕЛЯ КАК ОБЪЕКТ ПЕДАГОГИЧЕСКОГО ОЦЕНИВАНИЯ

**_Shahriyar Mazahir Majidov_**
*Phd student of Education Institute of the Republic of Azerbaijan*

## TEACHER'S TEACHİNG ACTİVİTY AS AN OBJECT OF THE PEDOGOGİCAL EVOLUTION

**Xülasə.** Məqalədə təlim-tərbiyə və tədris prosesini təşkil edən, həyata keçirən və qiymətləndirən təhsil verənin-müəllimin tədris fəaliyyəti diqqət mərkəzində saxlanılır.

Belə ki, tədris fəaliyyəti zamanı şagird bilik, bacarıq və vərdişlərə yiyələnir, inkişaf edir və formalaşır. Bunun hansı səviyyədə və keyfiyyətdə olması birbaşa müəllimin tədris fəaliyyətinin keyfiyyətindən asılıdır. Məqalədə müəllimin peşəkarlığının və səriştəliliyinin pedaqoji qiymətləndirilməsi hərtərəfli tədqiq olunmuş və geniş şəkildə işıqlandırılmışdır.

**_Açar sözlər:_** *müəllim, şagird, tədris, təhsil, təlim, qiymətləndirmə, pedaqoji fəaliyyət*

**Резюме.** В статье главное внимание удалено деятельности учителя, который является организатором учебно-воспитательного процесса. Ясно, что во время учебной деятельности ученик усваивая знания, умения и навыки развивается и формируется. А на каком уровне все это происходит, зависит от педагогического такта и деятельности учителя. В статье полностью, в широком аспекте освещена и исследована всесторонняя педагогическая оценка профессионализма и умения учителя.

**_Ключевые слова:_** *учитель, ученик, обучение, образование, учеба, оценивание, педагогическая деятельность.*

**Summary.** In the article teaching activity of the teacher is focusedon who organizes teachhing-upbringing, realizes and appreciates.

So, the student gets the habits of knowledge, ability and improves, is formed during teaching activity. Its being in what quality and level depends on teacher's teaching activity quality directly. Proficiency and pedogogical appreciation of capability of the teacher has been researched in every way and has been lighted broadly in the article

**_Key words_**: *teacher, student, teaching, education, avaluation, pedagogical activity*

Pedaqoji fəaliyyət pedaqogika elminin əsasında dayanan pedaqoji prosesi təşkil edən vacib komponentlərdən biridir. Pedaqoji proses zamanı əsas pedaqoji anlayışlar olan təlim, təh-

sil, tərbiyə və inkişaf reallaşdırılır və həyata keçirilir. Pedaqoji prosesdə əsasən iki istiqamət özünü göstərir. Bunlardan birincisi şagirdin təlim fəaliyyəti, ikinci istiqamət isə müəllimin pedaqoji fəaliyyətidir. Pedaqoji fəaliyyəti həyata keçirən əsas şəxs müəllimdir. Bu fəaliyyət pedaqoji ədəbiyyatlarda müəllimin tədris fəaliyyəti kimi şərh edilir. İstər pedaqoji fəaliyyət desək, istərsə də tədris fəaliyyəti hər birində əsas iş müəllimin öyrətməsi ilə bağlıdır. Müəllim tədris fəaliyyəti ilə məşğul olan pedaqoji ixtisaslı kadr-təhsil verən hesab olunur. Müəllimin tədris fəaliyyəti dedikdə birbaşa dərs prosesində reallaşan fəaliyyət nəzərdə tutulur. Əlbəttə, dərsə qədər müəllim müəyyən hazırlıq işləri görür, sonra dərs həyata keçirilir. Bundan sonra isə dərsin təhlili və qiymətləndirilməsi yerinə yetirilir.

Müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsi pedaqoji fəaliyyətin tənzimlənməsində vacib məsələlərdən biridir. Belə ki, tədrisi həyata keçirən əsas şəxs olan müəllimin tədris fəaliyyəti – qiymətləndirilməyə cəlb olunmaqla müəllim fəaliyyətinin mexanizmlərinin öyrənilməsi və daha aydın şəkildə həyata keçirilməsi reallaşacaqdır.

Tədris fəaliyyəti qiymətləndirilən zaman müəyyən olunmuş meyarların mövcudluğu əsas şərtdir. Təhsil sistemində qiymətləndirmə və monitorinq monoqrafiyasında müəlliflər bu haqda yazır: "Məktəbdə təlim-tərbiyə prosesinin yüksək göstəricilərlə həyata keçirilməsi bilvasitə həmin prosesin iştirakçılarının uğurlu fəaliyyətindən asılıdır. Ona görə də məktəbdə mütəmadi olaraq təlim-tərbiyə prosesi iştirakçılarının fəaliyyətinin qiymətləndirilməsi zərurəti yaranır. Bunun üçün ilk növbədə qiymətləndirilən fəaliyyəti xarakterizə edən parametrlər, həmçinin onların çəki əmsalları müəyyən olunmalıdır. Mürəkkəblik ondadır ki, parametrlər müxtəlif ölçmə şkalaları ilə ölçülür və prosesin qiymətləndirilməsi üçün onların ölçmələrinin vahid ölçmə şkalasına gətirilməsi zərurəti yaranır". (1) Buradan aydın olur ki, təlim-tərbiyə prosesini həyata keçirən müəllimin tədris fəaliyyətinin mütəmadi olaraq izlənilməsi və qiymətləndirilməsi nəinki lazımdır, hətta bu vacibdir. Əgər təlim-tədris fəaliyyəti qiymətləndirilməsə, ümumilikdə tədris prosesinin özü aydın olmayan şəkil alar, təlimin müsbət və çatışmayan cəhətləri üzə çıxmaz. Əlbəttə, tədris fəaliyyətinin qiymətləndirilməsi üçün parametrlər və həmin parametrlər üzrə göstəricilər müəyyən olunmalıdır.

Bu məqsədlə ümumtəhsil məktəblərində müəllimlərin pedaqoji fəaliyyətinin hansı parametrlərə görə və necə qiymətləndirilməsi üçün göstəricilər müəyyənləşdirilərkən müəllimin şəxsi keyfiyyətini, pedaqoji bacarığını, dərs dediyi şagirdlərin nailiyyətlərini, müasir təlim texnologiyalarına yiyələnmə səviyyəsini və onları öz işində tətbiq etmə bacarığını əsas tutan müəlliflər bunu iki yerə ayırır:

1. Müəllimin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi.
2. Müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi.

Daha sonra müəlliflər müəllimin peşəkarlıq səviyyəsinin qiymətləndirmə göstəricilərini əsasən aşağıdakı kimi müəyyən edirlər:

1. Müəllimin fənnə dair dərin və əsaslı biliklərə malik olması, müvafiq elm sahəsində yenilikləri sistematik öyrənməsi;
2. Fənnin tədrisi texnologiyalarına yiyələnməsi və metodik bacarığa malik olması;
3. Mövzuların şərhini aydın, dəlillərlə əsaslandırması;
4. Səlis tələffüzə, nitq mədəniyyətinə malik olması, optimal tempin seçilməsi;
5. Fənnə maraq oyatmaq, şagirdlərin meyil və maraqlarını inkişaf etdirməsi;
6. Şagirdləri sərbəstliyə, fəallığa və yaradıcılığa sövq etmə bacarığı;
7. Şagirdlərin biliyinin qiymətləndirilməsində obyektivlik;
8. Sinfi ələ almağa, dərsdə tədris mühiti və işgüzar şəraitin yaradılmasına nail olmaq;
9. Şagirdləri təlim fəaliyyətinin müxtəlif formalarına cəlb etmə bacarığı;
10. İstedadlı şagirdlərlə işin təşkili;
11. Təhsil sənədlərinin işlənilməsi;
12. Rayon və respublika səviyyəli pedaqoji müsabiqələrdə iştirakı;
13. Şagirdlərlə münasibətdə səmimilik, qayğıkeşlik, pedaqoji mədəniyyət və takt;
14. Metodik tövsiyələr, fənn proqramları və dərsliklərin hazırlanmasında iştirakı.

Müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi üzrə isə müəlliflər məşğələnin strukturu, dərs məşğələsinin məzmunu, dərs məşğələsinin texnoloji təminatı, dərs məşğələsinin əyani və texniki təchizatı, müəllim-şagird

münasibətlərinin xarakteri və dərs məşğələsinin səmərəliliyi olmaqla bir neçə göstəricilərlə qiymətləndirməyi qeyd edirlər (1).

Qeyd olunan ikinci göstəricilər tədris fəaliyyəti qiymətləndirilən zaman mütləq nəzərə alınmalıdır. Məşğələnin-dərsin strukturu müəllim üçün aydın olmalıdır. Buna görə müəllim cari hazırlıq zamanı gündəlik planlaşdırmada dərsin konturlarını aydın şəkildə cızmalıdır. Dərsin hansı ardıcıllıqla həyata keçirilməsi, mərhələlərin ardıcıl şəkildə bir-birini əvəz etməsi müəllimin pedaqoji bacarığıdır və tədrisin keyfiyyətinə birbaşa təsir edir. Ümumtəhsil məktəblərində aparılan müşahidələr zamanı bu sahədə nöqsanların olduğu üzə çıxır. Belə olan halda dərsin strukturu pozulur, dərsə ayrılan vaxt səmərəsi şəkildə istifadə olunur.

Dərsin məzmunu da tədris fəaliyyəti qiymətləndirilən zaman böyük əhəmiyyət təşkil edir. Dərsdə keçirilən mövzunun tam əhatə olunması, şagirdlərin biliklərə müstəqil şəkildə yiyələnmələri, dərsin məzmunun optimallığının təmin olunması vacibdir. Digər bir cəhət isə dərs məşğələsinin texnoloji təminatıdır. Apardığımız müşahidələr göstərir ki, bir çox müəllimlər dərsin texnoloji imkanı ilə texniki imkanını qarışdırır, onlar arasındakı fərqləri müəyyən edə bilmirlər. Belə olan halda da hansı cəhətin dərsdə təmin olunmasını, əlbəttə, söyləmək çətin olur. Dərsin texnoloji imkanı həmin dərsin hansı təlim və ya pedaqoji texnologiyalar gözləməklə keçirilməsində özünü ehtiva edir. Təlim texnologiyası dərsin məzmunu, tipi və strukturu ilə sıx bağlıdır və müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsi üçün bu göstəricinin nəzərə alınması zəruridir.

Müəllim tərəfindən dərsin əyani və texniki təchizatının təmin edilməsi tədrisin keyfiyyətinə təsirsiz ötüşmür. Çünki əyanilik təlim prinsipləri arasında özünə yer almış və dərsi maraqlı və səmərəli edən əsas cəhətdir. Elə fənlər var ki, onların tədrisində mütləq əyani və texniki təchizat mütləq lazımdır. Tutaq ki, müəllim İnformatika fənni üzrə kompüterin giriş və çıxış qurğularını şagirdlərə öyrədir, amma sinif kompüterlə təchiz olunmayıb. Əlbəttə, belə dərsin səmərəsi də olmayacaqdır. Çünki burada əyanilik təmin olunmayıb.

Tədris prosesinin keyfiyyət göstəricilərinin yüksəldilməsində, əlbəttə, müəllimin peşəkarlığı və səriştəliliyi əsasdır. Pedaqogika üzrə elmlər doktoru Müseyib İlyasov bunu nəzərdə tutaraq yazır: Peşəkarlıq - müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olmasına, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir. Səriştəlilik - müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir (2).

Bu fikirlərdən aydın olur ki, tədrisdə keyfiyyətə nail olmaq üçün peşəkarlıq əsasdır. Peşəkarlığın birinci şərti isə lazımi biliklərə yiyələnməkdir. Əgər müəllim öz ixtisası üzrə dərin, əsaslı biliklərə sahib deyilsə, əlbəttə onun tədris etdiyi dərsdən yüksək nəticə gözləmək olmaz. Müşahidələr göstərir ki, orta ümumtəhsil məktəblərində öz ixtisasını dərindən bilən müəllimlərimiz az deyil. Onlar daha yüksək keyfiyyət göstəricilərinə nail olurlar. Amma bu sahədə boşluqlar buraxan müəllimlər də az deyil. Bunu müəllimlərin diaqnostik qiymətləndirilməsi də təsdiq edir. İkinci vacib cəhət isə müəllimin bacarıqlara malik olmasıdır. Əgər biliklər olsa, onların praktikada tətbiqi üçün bacarıq olmasa, təlimdən yüksək nəticə əldə etmək olmaz. Üçüncü vacib məsələ isə şagirdlərlə yaradıcı şəkildə işləyə bilməkdir. Əgər müəllim şagirdlərlə yaxşı davranmırsa, təlimdə onların meyil və maraqlarını nəzərə almırsa, onları yaradıcı işə və tədqiqata cəlb etmirsə, heç şübhəsiz ki, həmin dərsin nəticəsi aşağı olacaqdır. Peşəkarlığı təmin edən dördüncü komponent isə pedaqoji prosesin incəliklərinə dərindən bələd olmaqdır. Pedaqoji prosesə bələd olmaq üçün müəllim mütəmadi olaraq öz üzərində işləməli, həm ixtisası, həm də metodiki bilikləri üzrə işləməli, eyni zamanda təlim prosesində qarşıya çıxan problemləri həll etməyi bacarmalıdır. Müəllimin səriştəliliyi isə pedaqoji prosesi daha əlverişli metodlarla idarə etməsidir. Əlverişli metod dedikdə nə nəzərdə tutulur? Pedaqoji ədəbiyyata nəzər salanda müəllimin dərs ərzində mövzuya uyğun, dərsin gedişinə müvafiq əlverişli metod seçə bilməsi səriştəlilikdir.

Bu gün Azərbaycan təhsil sistemində minlərlə müəllim çalışır. Əlbəttə bu müəllimlərin hər biri eyni peşəkarlığa və səriştəyə malik deyil. Bu hər bir müəllimin öz ixtisası və metodiki bacarıqları üzrə gördüyü işin mahiyyətindən asılıdır. Peşəkarlıq və səriştəlilik müəllimə nə verir? Peşəkar və səriştəli müəllim digər müəllim-

lərdən nə ilə fərqlənir? Bu sualı cavablandıran Müseyib İlyasov yazır: Peşəkar və səriştəli müəllim digər müəllimlərdən beş vacib cəhətə görə fərqlənir:

1. Peşəyə bağlılıq, işini sevmək, ixtisasını dərindən bilmək
2. Mürəkkəb pedaqoji problemləri ustalıqla həll edir.
3. Yenilikçi, yaradıcı olurlar.
4. Gələcəyi düşünən, planlaşdıran
5. Pedaqoji mədəniyyətə sahib olan (2)

Müəllimin tədris fəaliyyətinin hansı səviyyədə olması, heç şübhəsiz ki, onun dərsə hazırlıq səviyyəsindən asılıdır. Pedaqoji elmlər doktoru Əjdər Ağayev müəllimin dərsə hazırlaşmasını vacib şərt kimi irəli sürərək bunun üç istiqamətini göstərmişdir:

1. Müəllimin ümumi hazırlığı
2. Müəllimin proqram üzrə dərsə hazırlaşması
3. Müəllimin mövzu üzrə hər bir dərsə hazırlaşması(3)

Əgər müəllim deyilən bu üç istiqaməti öz tədris fəaliyyətində diqqətdə saxlamırsa, onun tədris fəaliyyəti istənilən səviyyədə ola bilməz. Göstərilən birinci istiqamət nə qədər ümumi xarakter daşısa da, bir o qədər vacib məsələdir. Müəllim ümumi dünyagörüşü baxımdan, psixo-loji-emosional, iradi cəhətdən hazırlıqlı, tədrisin ilk şərtlərinin nədən ibarət olduğunu bilməlidir.

Müəllimin proqram üzrə hazırlığı müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsində vacib şərt kimi diqqətdə saxlanılmalıdır. Bura nələr daxildir? Müəllim, professor Əjdər Ağayevin də qeyd etdiyi kimi, ilk növbədə iyul-avqust aylarında müəyyən konfrans, təlim və tədbirlərdə iştirak edir. Tədris fənni üzrə fənn proqramı ilə tanış olur, proqramda hansı dəyişikliklərin olduğunu müşahidə edir, özü üçün lazımlı informasiyalar əldə edir. Məktəb təcrübəsində deyilən bu məsələləri öz hazırlığı prosesində aydın şəkildə həyata keçirən müəllimlərimiz vardır. Lakin məktəb təcrübəsinin təhlili göstərir ki, bu sahədə işlər heç də yüksək səviyyədə deyil. Müşahidələr zamanı aydın olur ki, bəzi müəllimlər öz ixtisas fənni üzrə proqramla tanış olmur, aparılan dəyişikliklərlə maraqlanmır, fənnin məzmununda və dərsliklərdə baş verən yeniliklərdən xəbərdar olmurlar. Dərs başlanan zaman isə, keçən tədris ilinə məxsus biliklərlə yeni tədris mövsümünə başlayır. Hətta perspektiv planlaşdırma aparan zaman belə yeniliklərin hansı səviyyədə olması ilə maraqlanmır, planlaşdırmanı düzgün aparmır və yekunda dərs ili müddətində planlaşdırmada çoxlu dəyişiklər etməyə məcbur qalır.

Göstərilən üçüncü istiqamət də müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsində olduqca vacib həlqələrdən biridir. Müəllimin dərsinin uğurlu olması konkret dərsə nə dərəcədə hazırlaşmağından çox asılıdır. Təcrübələr göstərir ki, bir qisim müəllimlər kifayət qədər əməksevərlik nümayiş etdirərək aparacağı dərslə bağlı gündəlik planlaşdırma nümunəsi hazırlayıb onda dərsin 45 dəqiqə üzrə dəqiq açıqlamasını göstərir. Dərslə bağlı hazırlıq işlərini yalnız planlaşdırma ilə bitmiş hesab etmir, iş vərəqləri, əyani və texniki vəsaitlər hesabına dərslərin daha maraqlı, elmli və faydalı olmasına çalışır. Lakin, ikinci hazırlıq üzrə diqqətsizlik edən müəllimlər kimi, bu mərhələdə də kifayət qədər öz üzərində işləməyən, heç bir hazırlıq işi görməyən, yalnız dərs başlayanda jurnalı götürüb dərsə girən müəllimlər də az deyildir. Bir məsələni də qeyd etmək lazımdır ki, elə müəllimlər var ki, qeyd olunan hər üç istiqamət üzrə öz işlərini müasir tələblər səviyyəsində qururlar. Elələri də olur ki, hər üç istiqamətdə tənbəllik göstərirlər. Bəziləri isə müəyyən istiqamət üzrə ciddi fəaliyyət göstərməsələr də, bəzilərini diqqətdə saxlayırlar.

Müəllimin tədris fəaliyyətinin təşkili ilə bağlı prof. Ə.Ə. Ağayev yazırdı: Müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi funksiyasını yerinə yetirir: şagirdlərin işinə müdaxilə etmədən problemlər qoyur, istiqamət verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir (3).

Müəllimin tədris fəaliyyətinin keyfiyyəti bugünkü təhsil üçün böyük əhəmiyyət daşıyır. Təhsil elmi biliklərə və təcrübələrə yiyələnmək, yenilikləri öyrənmək və tətbiq etmək üçün əsas vasitədir. Təhsil mürəkkəb prosesdir. Bu prosesin ən vacib həlqələrindən biri, əlbəttə, müəllimin tədris fəaliyyətidir. Təhsil də bu tədris fəaliyyətinin keyfiyyətindən, keyfiyyət isə birbaşa müəllimin peşəkarlığından və pedaqoji qabiliyyətindən asılıdır. Şagirdlərin biliklərə yiyələnmə səviyyəsi ilə müəllimin tədris səviyyəsi arasında böyük əlaqə var. Bunu nəzərdə tutaraq prof. A.O. Mehrabov yazırdı: Çoxlu saylı araşdırma-

ların nəticələri göstərir ki, təhilalanların müvəffəqiyyətləri ilə müəllim kadrlarının keyfiyyəti arasında müəyyən edilmiş korrelyasiya təhsilə qoyulan vəsaitdən, ölkənin böyüklüyündən, təhsil imkanlarının bərabərlik bərabərlik göstəricisindən daha yüksək dəyərləndirilir. Müəyyən edilmişdir ki, əgər orta qabiliyyətli 9-cu sinif şagirdinə yüksək və aşağı səviyyəli müəllim dərs deyirsə, öyrənənlərin təlim nəticələri qısa bir vaxtda bir-birindən fərqlənməyə başlayır. Başqa sözlə, nəticələr göstərir ki, yüksək səviyyəli müəllimin sinfində uşaqların inkişaf edərək irəliləyişləri aşağı səviyyəli müəllimin müəllimin sinfində təhsil alan uşaqlarla müqayisədə təxminən üç dəfə tez inkişaf edir. Ona görə də ümumtəhsil məktəbləri müasir bilik və bacarıqlara malik müəllim kadrları tələb edir (4).

Yuxarıda qeyd olunan məsələlər böyük həqiqəti özündə birləşdirir. Əvvəl diqqət etmək lazımdır ki, keyfiyyətli kadrların olması təhsil üçün lazım olan digər vacib cəhətlər-infrastruktur, maddi-texniki baza, maliyyələşmə və digər məsələlər kimi nə qədər əhəmiyyətlidir. Məqalədən məlum oldu ki, keyfiyyətli müəllimin dərs dediyi şagird bilik və bacarıqlara daha yaxşı yiyələnir. Bunu məktəblərdə aparılan müşahidələr və təlim nəticələrinin statistik təhlilləri də sübut edir. Demək, təhsilin ümumi keyfiyyət səviyyəsi pedaqoji kadrlardan asılıdır. Pedaqoji kadrların keyfiyyəti öncə onların hazırlıq səviyyəsindən asılıdır. Hər bir müəllim, əlbəttə, pedaqoji təhsil alır, bu sahədə əsl pedaqoq kimi yetişmək üçün əmək sərf edir. Hər bir vaxt cəmiyyət müəllimə yüksək dəyər vermiş, onun nüfuzunu saxlamışdır. Lakin uzun illər bu peşənin yüksək gəlirli peşələrdən sayılmaması, gənclərin ixtisas seçimi zamanı bu ixtisasa meyil göstərməməsinə səbəb olmuşdur.

Müəllimin tədris fəaliyyətini qiymətləndirərkən müəllim-şagird münasibətlərinə də diqqət ayırmaq lazımdır. Çünki tədris prosesi bu iki tərəfin iştirakı olmadan mümkün deyil. Şagird-müəllim münasibətlərində hökm sürən mənəvi ab-havanın səviyyəsindən asılı olaraq tədrisin səviyyəsi də müəyyən olunur. Pedaqoji ədəbiyyata nəzər salanda müəllim-şagird münasibətlərinin şərti olaraq dörd tipə bölündüyünün şahidi oluruq.

Birinci tipə "müəllim-şagird" modeli aid edilir. Bu əsrlər boyu formalaşan didaktik modeldir. Təhsil tarixinə diqqət etdikdə elmi biliklərin öyrənən tərəfindən mənimsənilməsində bu modelin uzun müddət mövcud olduğunun şahidi oluruq. Qədim və orta dövr tarixlərində ustad-şagird münasibətləri bu müstəvidə həyata keçirilmişdir.

İkinci tipə "müəllim-auditoriya" modelini aid edirlər. Bu böyük sayda insan kütləsinə nəsihət vermə, təşviqat, maarifləndirmə məqsədi daşıyan dialoji formada müraciətdir. Bu tip münasibətdə eyni müəyyən zaman müddətində vahid məkanda öyrədən çoxlu sayda öyrənənlə münasibətdə olur.

Üçüncü tipə "müəllim-qrup" münasibətləri aiddir ki, bu tip üçün vasitəsiz kommunikasiya xarakterikdir.

Dördüncü tip "müəllim - təlim vasitəsi – şagird" distant təlim xarakterikdir. Burada təlim kompüter və digər texniki vasitələrlə həyata keçirilir. Elmi-texniki inqilabın baş verməsi, informasiya texnologiyalarının inkişafı ilə bu tip münasibət dünya təhsil sistemində öz əhatə dairəsini genişləndirir.

Müəllimin tədris fəaliyyəti qiymətləndirilən zaman onun tədris prosesini təşkil etmək bacarığına xüsusi diqqət yetirilməlidir. Tədris prosesinin təşkili dedikdə dərsə ümumi hazırlıq mərhələsindən başlayıb dərsin nəticələrinin təhlilinə qədər olan bütün addımlar diqqətdə saxlanılmalıdır. Lakin bu mərhələlər arasında daha çox dərs müddətində şagird fəaliyyətinin təşkili əsas rol oynayır. Bunu qiymətləndirmək üçün bir sıra üsullar müəyyən edilə bilər. İlk olaraq şagird fəaliyyətinin müəllim tərəfindən hansı səviyyədə təşkil olunduğunu bilmək üçün dərslərdə müşahidələr aparmaq lazımdır. Müşahidə zamanı tədrisin qiymətləndirməyə cəlb olunan tərəfləri daha aydın şəkildə özünü büruzə verər. Əlbəttə dərsdə müşahidənin aparıldığını görən müəllim dərsini daha yaxşı qurmağa çalışar. Lakin əgər həmin müəllimin pedaqoji ustalığı kifayət qədər deyilsə, o qısa zaman ərzində dərsdə keyfiyyətli təlim mühiti formalaşdıra bilməz. Səriştəli müəllim isə istənilən zaman dərslərini keyfiyyətlə təşkil edir. Müşahidələr zamanı müəllimin dərsə nə qədər hazır olması, şagirdlərlə işləmək bacarığı, fənnə qarşı şagirdlərdə marağın hansı səviyyədə yaradılması, təlimin metod və prinsiplərinin nə dərəcədə uğurla həyata keçirildiyi məlum olar. Bundan əlavə şagirdlərdə öyrənmək bacarığını öyrətmək də dərsdə müəlli-

min əsas işidir və bu cəhət də müşahidələr zamanı məlum olar. Müəllim yalnız biliklərin mənimsənilməsi ilə məşğul olmamalı, həmçinin şagirdlərdə qabiliyyətlərin formalaşması, onlarda psixoloji ovqatın düzgün tənzimlənməsində də mühüm işlər görməlidir. Bütün bunlar mü-şahidələr zamanı məlum olacaqdır. Bundan əlavə müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsində onun ünsiyyət tərzi, danışıq tempi və tonu da çox mühümdür. Müəllimlərimiz, əlbəttə, bunlara əməl edirlər. Amma müşahidələr aparan zaman məlum olur ki, bəzi müəllimlər adi bir dil qaydanı da izah edən zaman çox yüksək diapazonla şagirdlərə bilikləri mənimsətməyə çalışır. Lakin dərsin tətbiq mərhələsində məlum olur ki, sinfin yarısı demək olar ki, verilən izahları başa düşməmişdir. Bu cəhəti də dərsdə müşahidələr aparan zaman aydın şəkildə görmək olur.

Əlbəttə, yalnız müşahidə müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsi üçün tam şəkildə kifayət etmir. Bunun üçün bir sıra başqa üsullar da vardır. Həmin üsullardan növbəti tədqiqatlarda söhbət aparılacaqdır.

Bütün deyilən fikirləri ümumiləşdirərkən belə qənaətə gəlmək olur ki, müəllimin tədris fəaliyyəti pedaqoji prosesin əsasıdır. Burada həm müəllimin bir pedaqoji mütəxəssis kimi öz fəaliyyəti, həm şagird fəaliyyətini təşkil etməsi, həm də dövlətin təhsil siyasətini həyata keçirməsi öz əksini tapır. Müəllim öz işini yaxşı səviyyədə - elmi-pedaqoji və metodiki biliklərlə silahlanıb tələb olunan kimi qura bilirsə, o, tədris fəaliyyətində əlbəttə, uğur qazanır. Tədris fəaliyyəti qiymətləndirilən zaman bu məsələlər nəzərə alınır. Müəllimin tədris fəaliyyətinin parametrlər üzrə qiymətləndirilməsi qeyd etdiyimiz kimi vacibdir. Bu parametrlərin müəyyənləşdirilməsi bu sahədə qarışıqlığa son qoya bilər. Yekun olaraq həmin parametrləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi; 2. Müəllimin peşəkarlığının qiymətləndirilməsi; 3. Müəllimin səriştəliliyinin qiymətləndirilməsi

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərində müəllimin tədris fəaliyyəti geniş və çoxcəhətli pedaqoji istiqamətdir və onun qiymətləndirilməsi əhəmiyyət daşıyır.

**Problemin yeniliyi.** Pedaqoji prosesin əsaslarından biri olan müəllimin tədris fəaliyyəti, müəllim-şagird münasibəti, müəllim tərəfindən şagird fəaliyyətinin qiymətləndirilməsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Şagirdlərin təlim, tərbiyə və təhsil prosesini təşkil edən, onların bilik, bacarıq və vərdişlərə yiyələnməsində əsas əmək sahibi olan müəllimin tədris fəaliyyəti pedaqoji qiymətləndirmənin obyekti kimi öyrənilməklə tədqiqatçılara, müəllimlərə ətraflı məlumat verəcəkdir.

**Ədəbiyyat:**

1. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003.
2. İlyasov M. Müəllimin peşəkarlığı və pedaqoji səriştəlilik // ARTİ Elmi əsərləri. Cild 56. №1, 2015.
3. Talıbov Y., Ağayev Ə. Pedaqogika: Dərslik. Bakı: Adiloğli, 2006.
4. Mehrabov A. Pedaqoji təhsilin prioritetləri və səriştəli müəllim hazırlığının problemləri // Kurikulum, 2014, № 2

**E-mail:** shehriyarmecidov1990@gmail.com
**Rəyçi:** *ped.ü.fəls. dok.***İ.A. Cavadov**

**Redaksiyaya daxil olub:** 28.08.2019.